# TENDERƏ DƏVƏT

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi istehsal və qeyri-istehsal avadanlıqlarının satınalınması məqsədilə

## *AÇIQ TENDERƏ DƏVƏT EDİR*

**Tenderin predmeti:**
Lot 1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi üçün istehsal və qeyri-istehsal avadanlıqlarının satınalınması.

- Tender iştirakçılarına təklif edir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər;
- Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.
- Tenderdə iştirak etmək istəyənlər lot üzrə 200 manat iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti AZ1136 ünvanında yerləşən, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsindən (Əlaqələndirici şəxs Q.Əliyev, 538-93-59) ala bilərlər.

İddiaçılar tenderdə iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

| | |
|---|---|
| **Adı:** | **Dövlət Statistika Komitəsi** |
| **Hesab №-si** | **AZ59CTRE00000000000002238401** |
| **VÖEN:** | **1300189411** |
| **Adı: (bank)** | **DXA** |
| **Kodu:** | **210005** |
| **VÖEN:** | **1401555071** |
| **Müxbir hesab:** | **AZ41NABZ01360100000000003944** |
| **SWİFT BİK:** | **CTREAZ22** |
| **XHK** | **2238401(002353)** |
| **Büdcə təsnifatının kodu** | **142340** |
| **Büdcə səviyyəsinin kodu** | **7** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərfin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);

- tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;
- son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (forma 1 və forma 2);
- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının müqaviləni yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun olaraq keçiriləcəkdir.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcək: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, anoloji işlərdə təcrübə, maliyyə vəziyyəti.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 10 may 2013-cü il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 22 may 2013-cü il saat 17:00-a qədər Bakı şəhəri, İnşaatçılar prospekti 136 ünvanında yerləşən Dövlət Statistika Komitəsinə (otaq 424) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 23 may 2013-cü il saat 11:00-da Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti AZ1136 ünvanında yerləşən, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində (otaq 412) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası**